***Aşıq sənəti çoxəsrlik tariximizin və mədəniyyətimizin tərkib hissəsidir. Keçmişimizi bu günümüzə, bu günümüzü gələcəyə çatdıran sənət incisi xalqın istək və arzularını özündə təcəssüm etdirir. Bu keyfiyyətlərinə görə aşıqlar el arasında "haqq aşığı", "aşığın səsi haqqın səsidir", "aşıq el yaraşığıdır" kimi təqdim olunurlar. Onlardan biri XIX əsrin sonunda - XX əsrin əvvəllərində yaşayıb-yaratmış aşıq-şair Molla Cümədir. Molla Cümə incə zövqlü, lirik şair olub. Elinin yaxşı-yamanını tanıyan, qəlbini-könlünü oxşayan və hal-əhvalını bilən sənətkar kimi söz seçməyi, incələyib sədəf kimi düzməyi çox gözəl bacarıb. Mehrini türk dünyasının, türk mədəniyyətinin rəmzlərindən olan sədəfli saza bağlıyıb.***



# Aşıq poeziyamızın görkəmli nümayəndəsi

Molla Cümə 1854-cü ildə Azərbaycanın dilbər guşələrindən biri sayılan qədim Şəki şəhərində dünyaya göz açıb. O yaxşı bilirdi ki, kökü yüzilliklərin dərinliklərindən gələn, zəngin musiqi və söz repertuarına, teatral keyfiyyətlərə malik ozan-aşıq sənəti dilimizin, ruhumuzun qorunmasında, milli istiqlal düşüncəsinin daşınmasında, qəhrəmanlıq, yurdsevərlik duyğularının aşılanmasında mühüm rol oynayır.

Molla Cümə geniş dünyagörüşlü şair, Azərbaycan klassik poeziyasının kamil bilicisi olub. Ərəb və fars dillərini mükəmməl bilib. Erkən yaşından şeiriyyata, yazı-pozuya meyilli olub. Qaynar və coşqun təbi onu oxumağa, aşıqlıq etməyə sövq edib. El şənliklərində şeirlərinin oxunması, özünün aşıq kimi dinlənilməsi rəğbətlə qarşılanıb. Həyatının gənclik çağlarında eşqə düşür, varlı və mömin bir ailədən qız istəyir. Lakin bu istəyinə qovuşa bilmir. Nakam məhəbbətini ömrünün sonuna kimi unutmur. İsmi Pünhan adı ilə qovuşa bilmədiyi xanımı yorulmadan, usanmadan vəsf edir. Adını, maral kimi duruşunu, tərifini ellərə yayır:

**İsmi Pünhan, niyə məndən küsmüsən,**<br>**Yaxşı, yaman ya bir olar, ya iki.**<br>**Bu gün ölsəm hamı deyər yazıqdır,**<br>**Canı yanan ya bir olar, ya iki.**

O, elə bir ustad aşıq, korifey el sənətkarı idi ki, adamların könül dünyasına asanlıqla girə bilirdi, min bir məna verən mənalı jestləri var idi. Molla Cümə sazın əzəli-əbədi sirlərinə bələd olmuş, ona sidq ürəklə bağlanmışdı ki, bu, onun sazının və ifasının ən böyük sirri bu idi. O, elə şirin, elə doğma sənətkar idi ki, adamın könül dünyasında asanlıqla xoş hisslər yaradırdı. Aşığın nurlu çöhrəsi, min bir məna verən səsi, avazı var idi.

Şairin həyatı acı sonluqla bitib. Aşıq 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin fəal tərəfdarlarından biri olub. Həmin dövrdə Qarabağda, Zəngəzurda, Göyçə mahalında erməni quldur dəstələri dinc azərbaycanlı əhaliyə divan tutarkən digər bölgələrdə olduğu kimi, Şəkidə də Milli Orduya kömək məqsədilə könüllü dəstələr yaradılırdı. Həmin dəstələrdən birini aşıq və onun əmisi oğlanları yaratmışdı. 1920-ci ilin mayında Azərbaycanın sovetləşməsindən sonra bolşeviklərin həyata keçirdiyi repressiyalarda onun bütün qohumları həbs olunur. Bu haqsızlıq şairə pis təsir edir, sanki qəm dəryasında boğulub imdad diləyir. Molla Cümə ömrünün ixtiyar çağında çox sarsılır...

El sənətkarı Şəki məclislərində göründəndə, onun telli sazı köynəyindən çıxanda, saatlarla dastanlar söyləyəndə dinləyicilərin sevinci köksünə sığmırdı...

Şair Molla Cümənin gəraylıları, təcnisləri, qoşmaları olub. Bir sözlə, o, zəngin yaradıcılığa malik idi. Azərbaycan aşıq sənətinin yaranmasında, formalaşmasında və inkişaf etdirilməsində də Molla Cümənin əvəzsiz xidmətləri olub.

Aşıq-şair Molla Cümə 1920-ci ilin iyun ayında müəmmalı şəkildə öldürülüb. Günlərin bir günündə Molla Cümə kənddən çıxıb çiynində saz gedərkən yolda qəflətən XI qırmızı ordunun erməni əsgərləri ilə üzləşir. Ermənilər dərhal onun yolunu kəsirlər və el aşığından hara getməsini soruşurlar. Sən demə, buraya bolşevik bayrağı altında göndərilənlərin saz haqqında təsəvvürləri yox imiş. Söhbət çox uzanmır, erməni nankorları heç nəyin fərqinə varmadan Molla Cüməni amansızlıqla qətlə yetirirlər. Atəş səsinə hər tərəfdən insanlar axışıb gəlir. Bir qoca kişi əsəbi halda erməni yaraqlılarına üz tutub deyir:

- Bu dinc adamın, el aşığının günahı nə idi?

Erməni isə acıqlı halda cavab verir ki, necə öldürməyəydim onu. Bəs görmürsünüz günün günorta çağında açıq-aşkar heç kimdən qorxmadan çiynində silah gəzdirir.

Bir nəfər söhbətə müdaxilə edir:

- Sizin qırmızı ordu elə bu yolumu tutacaq axı o silah yox, sazdır, saz!

Aşıq Molla Cümənin ayrı-ayrı illərdə üç kitabı nəşr olunmuşdur. O, həm də bir neçə saz havasının müəllifidir.

Görkəmli el sənətkarının adı əbədiləşdirilmiş, Bakının Nərimanov rayonundakı Mərkəzi küçələrdən birinə Molla Cümənin adı verilmişdir.

**Qədir ASLAN,**<br>**"Respublika".**

Respublika .- 2025.- 14 mart (№ 56).- S.17.